# "Durnalar" ədiblərimizin yaradıcılığında

***XVIII əsrdən başlayaraq, günümüzə qədər Azərbaycan klassiklərinin və müasir dövr şairlərimizin əsərlərində durnalara xitab edilən şeir nümunələrinə rast gəlinir. Sözsüz ki, bu əsərlər milli ədəbiyyatımızın qiymətli sənət inciləridir.***

Bu əsərlər sırasında Qasım bəy Zakir, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Cəfər Cabbarlı, Süleyman Rüstəm, Məmməd Rahim, Nəbi Xəzri kimi qüdrətli qələm sahiblərinin yazdığı şeirləri misal göstərmək olar.

Bu şeirlərin çoxunda müəlliflər durnalara xitab edərək, ayrı düşdüklərindən xəbər almaq, həsrət dolu, intizar dolu hallarını bildirmək üçün xəbərlər göndərmək istəyində və s. olmuşdur.

Azərbaycan ədəbiyyatında elinin, xalqının dərd-sərini, mənsub olduğu dövrünü, sinfinin çatışmazlıqlarını, eybəcərliklərini, xəyanəti və cinayətləri cəsarətlə, çılpaqlığı ilə şeirlərində təsvir edən Qasım bəy Zakirin "Durnalar" şeiri digərlərindən tamamilə fərqlənir. Belə ki, şair misralarında durnaları özünə həmdəm, yoldaş, həmsirr və dost hesab edərək, ondan ehtiyatlanmamağı təvəqqe edir:

*Diyari-qürbətdə müddətdi varam,*
*Gecə-gündüz canan deyib ağlaram,*
*Mən də sizin kimi qəribü-zaram,*
*Eyləməyin məndən haşa, durnalar!*

Q.Zakir bu şeirində durnalara sanki bir dost kimi yanaşır. Onlara mehribanlıq, nəvaziş göstərərək, laçın yatağı olan bu yerlərin onlar üçün təhlükəli olduğunu dilə gətirir, əgər səsləri çıxarsa şahinlər, laçınlar duyuq düşüb onların sürbəsini, yəni dəstəsini dağıdaraq, al-qana boyayacağını bildirir. Bir tərəfdən, durnalara sevgisini bildirən şair, digər tərəfdən onlara rəhmi, yazığı gəldiyini, durna qatarının daha uzaq ellərə xətər görmədən səyahət etmələrini ifadə edir:

*Laçın yatağıdır bizim məkanlar,*
*Yavaş-yavaş gedin, səsiniz anlar,*
*Qorxuram toxuna ötən zamanlar,*
*Sürbəniz dağılıb çaşa, durnalar!*

Eşqdən od tutub ciyəri yanan Zakirin həsrətlə sevdiyi canandan xəbər gözləmək üçün ərarlı olduğunu şeirdən görmək mümkündür:

*Zakirəm, od tutub alışdı cigər,*
*Var isə canandan sizdə bir xəbər,*
*Təğafül etməyin, Allahı sevər,*
*Dönməsin bağrınız daşa, durnalar!*

Q.Zakirin durnalara etdiyi xitaba, demək olar ki, Molla Vəli Vidadi və Molla Pənah Vaqif şeirlərində də rast gəlinir.

Dostu Molla Pənah Vaqifdən fərqli olaraq, Molla Vəli Vidadi həyatın mənasını eyş-işrətdə deyil, ibadətlə məşğul olub, özünü dünyanın nemət və ləzzətlərindən məhrum edərək zahidliyə qapanmaqda, nəfsinə hakim olmaqda görürdü. Yəni o, bütün istəklərini qəlbi ilə axirətdə görməyi tərcih edirdi. Bu baxımdan, M.V. Vidadinin "Durnalar"ı tamam başqa ovqat yaradır. Vidadiyə görə, durnalar həmişə qəm və ələm içində olduğundan, onların oxuduqları nəğmələr fərəh və şadlıqdan deyil, qəmküssədən, ah-nalədən pərvaz edir:

Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?!

Təsbeh kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xurə gəzərsiz,
Siz düşərsiz pərişana, durnalar!

Durnaların şirin dilindən bağrı parça-parça olan M.V.Vidadi üzünü havada sıralanan durna qatarına tutaraq, onu rahatsız edən, əli öz doğma yerlərinə çatmadığı üçün vəziyyətin necə olduğu haqda xəbər almaq istəyir. Bu baxımdan, Vidadi durnalardan imdad diləyir, Vətəndən xəbər almaq üçün həsrət acısından üzüldüyü doğma el-obasına durnalar vasitəsilə namə göndərir:

*Oxuduqca şirin-şirin diliniz,*
*Bağrım olur şana-şana, durnalar!*

*Bir baş çəkin dərdimanın halınə,*
*Ərzə yazsın, qələm alsın əlinə,*
*Vidadi xəstədən Bağdad elinə*
*Siz yetirin bir nişana, durnalar!*

Məsuliyyətlə demək olar ki, ədəbiyyatımızda bu mövzuda daha çox populyarlıq qazanan, sevə-sevə oxunan, nəğməyə çevrilərək müğənnilərimizin repertuarını bəzəyən məhz Molla Pənah Vaqifin "Durnalar" şeiridir.

Əhli-zövq və səfa şairi olan M.P.Vaqif beşgünlük ömrü hədər getməsin deyə, onu eys-işrətdə keçirməyi, könlündən keçən hər bir həsrətin yer almamasını tərcih edirdi. Vaqif qəlbinin dərinliklərində kök salan təbdən, hissdən söz açır, durnalardan təmənna ilə xeyli vaxtdır, intizar çəkərək sorağında olduğu alagözlü həmdəmindən ona xoş müjdəli bir xəbər gətirmələrini xahiş edir:

*Xeyli vaxtdır yarın fərağındayam,*
*Pərvanətək hüsnün çırağındayam,*
*Bir ala gözlünün sorağındayam,*
*Görünürmü, görün, gözə, durnalar?!*

Vaqifə görə, durnaların oxumağı heç də ona hüzn gətirmir, könlünü pərişan etmir. Əksinə, onların o gözəl, təsirli avazı şairin kövrək ruhunu təzələndirir, şairi durnalarla birlikdə dövrə vurub, onlarla səyahət etməyə təhrik edir:

*Nazənin-nazənin edərsiz avaz,*
*Ruhlar təzələnir, olur sərəfraz,*
*Vaqifin də könlü çox edər pərvaz,*
*Hərdən sizin ilə gəzə, durnalar!*

Durnalara xitabən yazılmış şeirlərə XX əsrin əvvəlindən başlayaraq, ədiblərimizin yaradıcılığında da rast gəlirik. Bu baxımdan, C.Cabbarlının, S.Rüstəmin, M.Rahimin, Nəbi Xəzrinin şeirləri diqqət çəkir.

XX əsrin əvvəlində - 1918-ci ildə Şərqdə ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cəmi 23 ay yaşayan bu gənc respublikanın süqutu xalqımızın bütün zümrələri kimi ədiblərimizi də rahatsız etdi. Onlar bu haqda müxtəlif şeirlər dərc etdirdilər. Şeirlərində bu Xalq Cümhuriyyətimizə sevgi sərgiləyən C.Cabbarlı onun süqutu ilə barışa bilmir, ürək ağrısını, həsrət və intizarını misralara köçürürdü. Ədib Cümhuriyyətin qurucularından biri, qurbətdə yaşamağa məhkum olunan həmməsləki Mirzəbala Məmmədzadəyə ünvanlandığı şeirində intizarını, Turan birliyi həsrətini durnalar vasitəsilə dostuna çatdırır:

*İntizar gözlərdən Xəzər doğuldu,*
*Həsrət üreyimiz yanar dağ oldu.*
*Dillərimiz Turan deyə yoruldu,*
*Turan ellərinə salam söyləyin.*

*Ulduzlu bir göy, tac üstə aypara,*
*Bir al yaylıq verim yetirin yara.*
*Durnalar, durnalar bizdən dübarə*
*Turan ellərinə salam söyləyin.*

Xalq şairi S.Rüstəmin durnalara xitabən yazdığı şeirlərində Cənub həsrətini, Cənub yanğısını, o tayda yaşayan bacı-qardaşlarımızdan nigaranlığı, onlara yetişmək arzusu təsvir olunur. Durnaları özünə tərcüman bilən S.Rüstəm durnalara müraciət edərək, şairi öz arzu-kamına çatması üçün Arazın o tayına ötürmələrini, qanı bir, canı bir cənublu bacı-qardaşlarına qovuşaraq, onlarla sevincini, şeir və nəğmələrini bölüşmək istəyini onlardan xahiş edir:

*Arazdan o taya ötürün məni,*
*Arzuma-kamıma yetirin məni.*
*Paylayım sevinci, şeiri, nəğməni,*
*Dəysin dost əlinə əlim, durnalar,*
*İkiqat olmamış belim, durnalar!*



*Doğma Arazımın qırağındayam,*
*Bir qara gözlünün fərağındayam.*
*Həm bacı, həm qardaş sorağındayam,*
*Məni qorxutmayır ölüm, durnalar!*
*El gülsün, mən də bir gülüm, durnalar.*

Qanadlılar dünyasının "şairlərindən" - durnalardan söz açan S.Rüstəm digər şeirində ömür boyu durnalardan razılığını, durnaların həsrətilə dinən ürəkləri təsvir edir:

*Ömrüm boyu mən razıyam durnalarımdan,*
*Arazımı unutmadı qanadlı karvan.*
*Bu sahildən o sahilə qondu durnalar,*
*Yadlarında saxlayaraq mənim şərtimi.*
*Ləleyini qələm kimi yoldu durnalar,*
*Yazdı cənub torpağına köhnə dərdimi.*
*Aylar keçdi, soldu güllər, soldu çiçəklər,*
*Durnaların həsrətilə dindi ürəklər.*
*Mən də hər gün gözlərimi dikdim göylərə,*
*Payız gəldi, qaqqıltıyla doldu dağ-dərə...*
*Yenə bizim bu məkana gəldi durnalar,*
*Mahnılarla Lənkərana gəldi durnalar.*
*Gözlərində o sahilin qəmli lövhəsi,*
*Səslərində qardaşımın, bacımın səsi.*
*Əzizsiniz, əzizsiniz elçin, durnalar,*
*İki sahil arasında elçim durnalar!*

Xalq şairi Məmməd Rahimin 1960-cı ildə qələmə aldığı "Durnalar" şeirində şair durnalardan ərəb torpaqlarında, Bağdadda uyuyan dahi klassik şairimiz Məhəmməd Füzulinin qəbri üstdən keçərək, ona Azərbaycan elindən salam söyləyib ruhunu şad etmələrini xahiş edir:

*Durnalar, qatar-qatar*
*Yurdumu tərk edəndə,*
*Ərəb torpaqlarına*
*Bizdən qonaq gedəndə,*
*Hansı gölün suyundan*
*İsteyirsiniz için!*
*Qış fəslində yurdunuz*
*Bəsrə, ya Bağdad olsun,*
*Ancaq ki, Füzulinin*
*Qəbri üstündən keçin;*
*Qoy o nakam şairin*
*Ruhu bir az şad olsun.*
*Söyləyin "Biz gəlmişik*
*Xəzərin sahilindən,*
*Həsrətini çəkdiyin*
*Azərbaycan elindən".*
*Deyin ki, çox andığın*
*Fərağilə od tutub,*
*Çıraq kimi yandığın*
*Azərbaycan birca gün*
*Heç sənsiz olmayıbdır.*
*Axı dahi adamlar*
*Vətənsiz olmayıbdır.*

Məmməd Rahim həm də bu şeirində dahi Füzuliyə olan ümumxalq məhəbbətini təsvir edərək, onun daim xatırlandığını dilə gətirir, durnalardan xalqımızın şad həyatı haqqında xəbərləri ona çatdırmağı rica edir:

*O şair ki, dərdini*
*Açdı sabah yelinə -*
*Ona salam aparın*
*Doğma kəndi Boyatdan.*
*Ona müjdə yetirin*
*Bizim bu şən həyatdan.*
*Uçun Bağdad elinə,*
*Yolunuzdan qalmayın,*
*Mənim də xahişimi*
*Ancaq yerə salmayın!*

Xalq şairi Nəbi Xəzri isə durnalara tamam başqa kontekstdə yanaşmışdır.

Məkrli düşmən olan erməni quldur dəstələri uzun müddət Azərbaycanın 20 faiz ərazisini işğal edərək, doğma Qarabağımızı, şeirimizin çeşməsi, mədəniyyətimizin beşiyi Şuşamızı əsarətdə saxladı. 1 milyona yaxın soydaşımız öz doğma ata-baba yurdlarından didərgin salındı. Mədəniyyət abidələrimiz, tarixi və dini abidələrimiz vəhşicəsinə talan və darmadağın edildi. Erməni vandallarının bu vəhşiliyi sanki durnaların bu yerlərə baş çəkməsinə böyük bir "Çin səddi" qoydu. Digər şairlərimiz kimi, Nəbi Xəzri də ürəyində köz bağlayan Qarabağ dərdini, Şuşa həsrətini misralara kökləyərək, Qarabağ səmasında durna qatarını yenidən görmək üçün durnalara xitab edir:

*Səma yolçuları, həsrət gözlərəm,*
*Bu qədər gecikmək olmaz, durnalar!*
*Sizi üfüqlərdə gəzər gözlərim,*
*Niyə gəlməzsiniz bu yaz, durnalar?!*

*Qarabağ gözlərdi gəlişinizi,*
*Hər il yol çəkərdi dağların gözü.*
*Bu gün yanan evlər,-*
*Barıt qoxusu,*
*Nagahan açılan*
*Güllə qorxusu*
*Bəlkə pərəm-pərəm eyləyib sizi?*

Ölüm gəzən yerdə durnaların gəzə bilməməsini, qan sızan sularda durnaların üzə bilməməsini önə çəkən şair "Durnalar qayıdanda" şeirində əmin-amanlıq dövründə durnaların qayıdışını tərənnüm edir. Ömrünün son illərində Qarabağ dərdinin acısını yaşayan şair tez-tez bu şeirinə müraciət edərdi. Əslind, şair illər öncə qələmə aldığı və bu günümüzlə həmahəng səslənən həminki şeirində sanki doğma torpaqlarının işğaldan azad olunacağına, Qarabağ səmasının aydın görünəcəyinə, Azərbaycanın dövlət bayrağının dalğalanacağına böyük ümidlər bəsləyərək, inam hissi ilə azad olunmuş torpaqlara durnaların qayıdışını təsvir edir:

*Bahar yuxusundan oyadır yeri,*
*Artıq könül sıxmır çən də, duman da*
*Durnalar qayıdanda.*
*Nə qədər arzular qayıdır geri*
*Durnalar qayıdanda.*

*Bu gün bir canlıyam, sabah torpağam,*
*Gör nələr düşünür insan cahanda,*
*Durnalar qayıdanda.*
*Elə bil dünyaya qayıdacağam*
*Durnalar qayıdanda,*
*Hər bahar qayıdanda.*

PS: Azərbaycan klassik ədəbiyyatında bu günə qədər durnalara həsr olunmuş yüzlərlə şeir var. Sözsüz ki, onların hər birinin bədii dəyəri haqqında müfəssəl yazımda bəhs edə bilməzdim. Ümid edirəm ki, gənc tədqiqatçılar bu mövzuya dönə-dönə müraciət edəcəklər. Yazını xalqımız böyük qələbə gününü - Zəfər bayramını qeyd etdiyi gündə qələmə aldım. Qəlbimdən, ədiblərimizdən fərqli durnalara xitabən bir arzu keçdi. Cəh-cəh vuran quşlar kimi bizim ellərdən uzaq ellərə köç edən durna qatarından bir xahişim var: "Durnalar, 44 günlük Vətən müharibəsində doğma Qarabağımızı düşmənlərdən təmizləyərək qazandığımız tarixi zəfər günümüzün sevincini, müzəffər Ali Baş Komandan İlham Əliyevin və müzəffər ordumuzun - canını əsirgəməyən şəhidlərimizin, qanını əsirgəməyən qazilərimizin, cəsur qəhrəmanlarımızın göstərdikləri sücaəti, rəşadəti siz də dünyaya çatdırın. Cənublu bacı-qardaşlarımız bu gün ciddi imtahan qarşısındadır. Arzumuz onların arzuları ilə birdir: Vahid Azərbaycan!".



Qafar Əsgərzadə,
Əməkdar jurnalist, Pedaqogika üzrə fəlsəfə doktoru, dosent